Axtarışlar

150

# Firidun bəy Köçərlinin Məmmədəli Sidqiyə məktubları



*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Firidun bəy Köçərlinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda 114 saxlama vahidi altında mühafizə edilən şəxsi arxivi filologiya elmləri doktoru Məmməd Adilov tərəfindən 2006-cı ildə nəşr edilmişdir. Arxivdə Firidun bəy Köçərlinin həyat yoldaşı Badisəba xanıma yazdığı 48 və müxtəlif şəxslərə ünvanladığı 5 məktubu saxlanılır ki, bunlar da sözügedən kitabda verilmişdir. Bununla belə, digər arxivləri araşdırarkən Köçərlinin müxtəlif şəxslərə yazdığı, hələ də işıq üzü görməmiş məktubları üzə çıxır.*

*Tanınmış ziyalı, mühərrir Məmmədəli Sidqinin Əlyazmalar İnstitutunda saxlanılan şəxsi fondunda müxtəlif şəxslərin ona yazdığı məktublar sırasında Firidun bəy Köçərlinin də üç məktubu vardır. Məktublar 25 dekabr 1910-cu il, 14 noyabr 1913-cü il, 3 dekabr 1916-cı il tarixlərində Qoridən yazılmışdır. Ərəb əlifbasında səliqəli xətlə qələmə alınmış məktubları oxuduqca bu böyük elm və maarif xadiminin, tanınmış ziyalının zəngin mənəvi keyfiyyətləri bir daha göz önündə canlanır. Məktubların Firidun bəy Köçərlinin mənəvi keyfiyyətlərinin işıqlandırılmasında, həyat və fəaliyyətinin müəyyən məqamlarını canlandırmaqda əhəmiyyətini nəzərə alıb, ərəb əlifbasından müasir əlifbaya transfoneliterasiya edərək oxucuların nəzərinə çatdırırıq.*

**Nailə Səmədova**

*filologiya elmləri doktoru*